# Azərbaycanla Oman arasında əməkdaşlığın böyük potensialı var



Milli Məclisin Sədri Sahibə Qafarova Oman Sultanlığına rəsmi səfəri çərçivəsində bu ölkənin xarici işlər naziri Bədr əl-Busaidi ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə xarici işlər naziri Bədr əl-Busaidi parlamentlər arasında münasibətlərin ölkələrimiz və xalqlarımız arasında əlaqələrə müsbət təsirini qeyd edərək, bu mənada Milli Məclis Sədrinin səfərinin xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb.

O, ölkələrimiz arasında siyasi, iqtisadi, turizm və biznes sahələrində əməkdaşlıq istiqamətində böyük potensialın mövcud olduğunu bildirib. Bu sahələr üzrə əlaqələrin daha da genişlənməsinə parlamentlərin mühüm töhfə verə biləcəyini söyləyib.

Nazir, Azərbaycanın strateji coğrafi mövqeyinin logistika və nəqliyyat sahələrində geniş imkanlar yaratdığını, Omanın isə əsas beynəlxalq nəqliyyat yollarının kəsişməsində yerləşməsinin birgə əməkdaşlığın daha da genişlənməsinə töhfə verəcəyini vurğulayıb.

Spiker Sahibə Qafarova görüşdə Azərbaycan ilə Oman arasında mövcud münasibətlərin möhkəm əsaslara söykəndiyini və bu əlaqələrin daha da inkişaf etdirilməsi üçün geniş perspektivlərin olduğunu diqqətə çatdırıb.

O, beynəlxalq təşkilatlar çərçivəsində iki ölkə arasında əməkdaşlığın uğurla davam etdiyini, Oman Sultanlığının Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin təmin olunması ilə bağlı qəbul edilən sənədlərdə ölkəmizə daim dəstək göstərildiyini vurğulayıb.

Görüşdə Azərbaycanın Oman Sultanlığında səfirliyinin açılmasının ikitərəfli münasibətlərin daha yüksək səviyyəyə qaldırılmasına imkanlar yaratdığı qeyd edilib. İki ölkənin Xarici İşlər və İqtisadiyyat nazirlikləri arasında təmasların əhəmiyyəti də diqqətə çatdırılıb.

Sahibə Qafarova qanunverici orqanlar arasında əməkdaşlığın yüksək qiymətləndirildiyini, parlament diplomatiyası vasitəsilə qarşılıqlı dəstəyin davamlılığının təmin edilməsi istiqamətində ardıcıl səylərin göstərildiyini bildirib. Qeyd olunub ki, 2023-cü ilin yanvarında iki ölkənin spikerləri arasında baş tutan ilk görüşdən sonra parlamentlərarası əməkdaşlıq əhəmiyyətli dərəcədə genişlənib, müxtəlif səfər və tədbirlər çərçivəsində qarşılıqlı görüşlər keçirilib.

Tərəflər həyata keçirilən qarşılıqlı təmasların ölkələrimiz arasında münasibətlərin daha da möhkəmlənməsinə töhfə verdiyini qeyd ediblər.

Spiker Sahibə Qafarova vurğulayıb ki, Azərbaycan və Oman sülhpərvər dövlətlərdir və sabitliyin qorunmasına və qarşılıqlı əməkdaşlığın inkişafına xüsusi önəm verirlər. Bu baxımdan iki ölkə arasında əlaqələrin inkişafı həm məntiqli, həm də zəruri xarakter daşıyır.

Görüşdə humanitar əməkdaşlıq məsələləri də müzakirə edilib. Bu çərçivədə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın bu ölkəyə səfərinin mədəni əlaqələrin, humanitar əməkdaşlığın müzakirəsi baxımından əhəmiyyətli olduğu vurğulanıb.

Söhbət zamanı regiondakı mövcud vəziyyət barədə də fikir mübadiləsi aparılıb. Spiker Sahibə Qafarova Azərbaycan torpaqlarının işğaldan azad edilməsindən sonra ölkəmizin təşəbbüsü ilə regionda sülh prosesinin başlandığını, xüsusilə Vaşinqton sammitindən sonra Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində mühüm irəliləyişlərin əldə olunduğunu diqqətə çatdırıb. Həmçinin regionda yeni nəqliyyat bağlantılarının yaradılması istiqamətində görülən işlərin sabitliyə və əməkdaşlığa töhfə verəcəyi qeyd olunub.

***"Azərbaycan"***